

**Çingiz ABDULLAYEV**
*Xalq yazıçısı*

# Rauf Arifoğluya açıq məktub

Hörmətli redaktor. Siz uzun illərdir qəzetə rəhbərlik edirsiniz və yetərincə ağıllı olduğunuza şübhəm yoxdur. Mənim bir sualıma cavab verin. Siz yazırsınız ki, "bu salonda sərf olunan pulları görmürəm", deyən jurnalistin qərəzli sualının müqabilində ondan üzr istəməliyəm. Səmimi cavab verin. O jurnalist belə bir sualı hər hansı bir nazirə verə bilərdi? Ya da icra başçısına? Hətta JEK müdirinə? İnanmıram ki, o belə bir tonla sual verməyə cəsarət edər. Yazıçıya isə belə sual vermək olar, sizcə? Və siz belə bir "jurnalisti" dəstəkləyirsiniz? Əgər Anarı, Çingiz Abdullayevi, Ramiz Rövşəni, Yazıçılar Birliyini təhqir etmək olarsa, sizi, sizin qəzetinizi də təhqir etmək olar. Yəni siz həqiqətən bunu anlamırsınız?

"Turan" Agentliyinin rəhbəri həbs olunanda Anarla mən onun həbsdən azad olunması barədə müraciəti birincilər sırasında imzaladıq. Ertəsi gün Yazıçılar Birliyinin icarəyə verdiyi yer qalmaqal hədəfinə çevrildi. Siz bunu bilirdiniz? O, azadlığa çıxan kimi bizə təşəkkür etdi.

Düşünürəm ki, hər şey sizə aydın - dır. Yox, əgər aydın deyilsə, mənim daha sizə sualım yoxdur. Mövqeyinizi doğru saymağa davam edə bilərsiniz.

Ədəbiyyat qəzeti.- 2022- ci il.- 19 noyabr.- S. 2.